# Azerbaijani philosophical idea in Hussein Baykara's works

**Faig Alakberli**
Ph.D. in Philosophical Sciences, Associate Professor, Institute of Philosophy and Sociology of ANAS, leading researcher. Azerbaijan.
E-mail: faikalekperov@mail.ru
https://orcid.org/0000-0002-8865-568X

**Abstract.** The article notes that in Hussein Baykara's works a particular pluse take such socio-ideological and philosophical ideas as entering of Azerbaijani people in the 21 centry a new stage of its development and gaining freedom, lost once as a result of aggressive politics of Tsarist Russia. There were expresical similar politico-ideological and philosophical issues.Besides, the issues of Azerbaijani culture, as well research and propagation of Azerbaijani philosophy that bay the basis of his world outlook, are highlighted in a light of preserving national independense, Further it is stated that Hussein Baykara's researches in the field of Azerbaijani culture and philosophical thought are closely connected with questions of national independense induding Azerbaijanism.In every his work, investigating the problems of culture and philosophy he strived to show the difficulties an epoch put before him. In this term he criticired an idea of soviet internationalism, put forfard by soviet rejime against Azerbaijani culture and philosophy. In Baykara's opinion in Azerbaijani-Turkic national sociologists, the representatives of romanticist and realist school played an important .
**Purpose:** to show an essense of philosophical-historical ideological Azerbaijani national idea on the basis of Hussein Baykara's works.
**Methodology:** comporative analyisis, succession
**Scientific novelty:** to agree the basic principles of Azerbaijani national idea or Azerbaijanism with requirements of contemporaneity, it is necessary to work out more pragmatic purerples
**Keywords:** Azerbaijani national idea, Turkism, Azerbaijani Turkism, to modernise, Azerbaijani culture, Azerbaijani philosophy, Bolshevism, Soviet internationalism.

http://dx.doi.org/10.29228/edu.251
**To cite this article:** Alekperli F. (2020) *Azerbaijani philosophical idea in Hussein Baykara's works.* «Scientific works», Vol. 34, Issue I, pp. 47-57
**Article history:** Received — 16.03.2020; Accepted — 11.04.2020

# Hüseyn Baykaranın yaradıcılığında Azərbaycan milli ideyası

**Faiq Ələkbərli**
Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, aparıcı elmi işçi. Azərbaycan. E-mail: faikalekperov@mail.ru
https://orcid.org/0000-0002-8865-568X

**Annotasiya.** Məqalədə Hüseyn Baykaranın yaradıcılığında XIX əsrdən başlayaraq Azərbaycan xalqının yeni bir dövrə qədəm qoyması, çar Rusiyası tərəfindən qəsb edilmiş azadlığın yenidən qazanılması kimi siyasi-ideoloji və fəlsəfi məsələləri öz

əksini tapmışdır. Eyni zamanda onun dünyagörüşünün əsasını təşkil edən Azərbaycan milli istiqlalının yaşadılması kontekstində Azərbaycan mədəniyyətinin, Azərbaycan fəlsəfəsinin tədqiqi və təbliği işıqlandırılmışdır. Burada göstərilir ki, H.Baykaranın Azərbaycan mədəniyyəti və fəlsəfi fikri ilə bağlı araşdırmaları Azərbaycan milli İstiqlalı, o cümlədən azərbaycançılıqla sıx bağlı olmuşdur. Baykara hər bir əsərində mədəniyyət və fəlsəfənin problemlərini araşdırmaqla yanaşı, dövrün onun qarşısında qoyduğu çətinlikləri də ifadə etməyə çalışmışdır. Bu mənada SSRİ rejiminin Azərbaycan mədəniyyəti və fəlsəfəsinə qarşı yürütdyü «sovet beynəlmiləlçiliyi» ideyasını Baykara həmişə tənqid atəşinə tutmuşdur. H.Baykaranın fikrinə görə, azərbaycançılığın-türkçülyün milli ideoloqları ilə yanaşı, Azərbaycanın milli - azadlıq hərəkatında romantizm və realist ədəbi məktəbinin nümayəndələri də mühüm rol oynamışlar.

**Məqsəd:** Hüseyn Baykaranın timsalında Azərbaycan milli ideyasının fəlsəfi-tarixi və siyasi-ideoloji mahiyyətini ortaya çıxarmaq

**Metodologiya:** müqayisəli təhlil, varislik

**Elmi yenilik:** Azərbaycan milli ideyasının ya da azərbaycançılığın təməl prinsiplərini müasir tələblərlə uzlaşdırmaq üçün daha praqmatik prinsiplərin işlənib hazırlanması lazımdır.

**Açar sözlər:** Azərbaycan milli ideyası, türkçülük, Azərbaycan türkçülüyü, müasirləşmək, Azərbaycan mədəniyyəti, Azərbaycan fəlsəfəsi, bolşevizm, sovet beynəlmiləlçiliyi.

http://dx.doi.org/10.29228/edu.251

**Məqaləyə istinad:** Ələkbərli F. (2020) *Hüseyn Baykaranın yaradıcılığında Azərbaycan milli ideyası.* «Elmi əsərlər», № 1 (34), səh. 47-57

**Məqalə tarixçəsi:** Göndərilib – 16.03.2020; Qəbul edilib – 11.04.2020

## Giriş / *Introduction*

XX əsrin əvvəllərində ictimai-siyasi və fəlsəfi fikrin milli-demokratik yönü birmənalı şəkildə türkçülük-millətçilik (türk birliyi), islamçılıq (İslam birliyi), qərbçilik (Qərb mədəniyyətini mənimsəmək, ya da müasirləşmək/yeniləşmək) və istiqlalçılıq (müstəqil Azərbaycan) ideyaları ilə bağlı olmuşdur. Burada başlıca məqsəd milli və dini məsələlərin əsas prinsiplərindən kənara çıxmamaq şərtilə Qərbin müsbət demokratik dəyərlərini də təbliğ etmək idi. Deməli, bu dövrdə milli-demokratik cərəyan Azərbaycan milli ictimai-fəlsəfi fikrində önəmli yer tutmuşdur.

Bu dövrdə Azərbaycan türk aydınlarının böyük əksəriyyəti (Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Nəsib bəy Yusifbəyli və b.) milli fəlsəfi dünyagörüşlərində əsas üstünlüyü milli-dini xüsusiyyətlərə və liberal-demokratik dəyərlərə vermişlər. Onlar dövrün tələblərini və ideyalarını da nəzərə almaqla milli və dini dəyərlərə sadiq qaldılar. Həmçinin Azərbaycan türk millətinin fəlsəfi, mədəni və dini dünyagörüşü əsasında yeni ideyalar irəli sürdülər. Bu ideyalar idealist dünyagörüşdən əsasən kənara çıxmamış və milli - fəlsəfi fikir zəminində təşəkkül tapmışdır. Məhz bu aydınların irəli sürdüyü ideyalar nəticəsində Azərbaycan çar Rusiyasının müstəmləkəsindən qurtularaq azad və müstəqil bir dövlətə çevrilmişdi. Belə ki, ilk rüşeymləri XIX əsrin ikinci yarısında qoyulan və XX əsrin əvvəllərində sistemləşən milli azadlıq ideyası Azərbaycan Cümhuriyyətinin yaranması (1918) ilə nəticələndi. Ölkənin siyasi-ideoloji mənzərəsinin dəyişməsində I (1905) və II (1917) Rusiya inqilabları çox mühüm rol oynadı. Şübhəsiz ki, bu inqilablar dövründə xalq arasından çıxan milli liderlərin, ideoloqların xalqı öz arxalarınca aparmaları müstəsna yerə malikdir. Məhz onların sayəsində yeni dövrdə Azərbaycanda milli ideologiyanın təməl prinsipləri müəyyənləşdirildi. Azərbaycanın siyasi azadlığı milli

muxtariyyətdən milli istiqlala qədər çox mühüm bir mərhələ keçmiş oldu. Ən əsası odur ki, «tarixi-coğrafi Azərbaycan» deyimini "müstəqil və milli Azərbaycan" anlayışı əvəz etdi. Milli istiqlalın birmənalı şəkildə ideoloqu olan M.Ə.Rəsulzadə Azərbaycan türkçülüyü ideyasını Azərbaycan milli ideologiyasına qədər yüksəldə bilmişdi.

## Əsas hissə / *Main Part*

### Hüseyn Baykara Azərbaycanda yeniləşmə hərəkatı haqqında

Azərbaycan Türk aydını Hüseyn Baykaranın yaradıcılığında XIX əsrdən başlayaraq Azərbaycan xalqının yeni bir dövrə qədəm qoyması, çar Rusiyası tərəfindən qəsb edilmiş azadlığın yenidən qazanılması məsələləri xüsusi yer tutmuşdur. O özünü «Azərbaycanda yeniləşmə hərəkatları. XIX yüzil» və «Azərbaycan istiqlal mübarizəsi tarixi» kitablarında bu məsələlərə geniş yer vermişdir. «Azərbaycanda yeniləşmə hərəkatları. XIX yüzil» əsərində Baykara göstərməyə çalışmışdır ki, Azərbaycan xalqı hansı şərait və mühitdə yeniləşmənin zəruriliyini dərk etmişdir. O yazırdı: "Millətlərin həyatında hər dövr, hər çağ bir neçə yüz ili əhatə edir. Bu çağların dönüm illəri də olduqca uzun müddətdə inkişaf edir və yetkinləşir. Azərbaycan tarixində yeniləşmə hərəkatının əvvəlcə ziyalıların fikir dünyasında doğması və fikirlərin həqiqi xalq həyatına keçirilməsi, yəni Qərb anlamında renessans, reformasiya çağları, ondan sonra bu çağların üstündə qurulan hüriyyət, azadlıq mübarizəsi dövrü əsrdən çox bir müddəti əhatə etmişdir. Millətlərin oyanış, renessans çağında o millətin içindən yetişən ziyalı rəhbər şəxslərə görə, əvvəlcə mənsub olduğu millətin kimliyi və keçmiş zamanlardakı vəziyyəti araşdırılır, incələnir, sonra geri qalmış və bu geriliyin səbəbi ilə yabançı imperialist millətin əsarəti altına düşmüş olan xalqa onun kimliyi tanıdılır. Beləliklə, müstəmləkədə olan xalq öz mənliyini öyrənir, keçmiş zamanlarda atalarının əsarət altında yaşamadıqlarını və sözün əsl mənasında müstəqil, azad yaşadıqlarını, müstəqil dövlət qurduqlarını anlayır. Nəticədə millətin şüuru oyanır, azadlıq mübarizəsinə başlayır" [4, s. 56-57].

Onun fikrincə, Şimali Azərbaycan xalqında da milli oyanış, yeniləşmə hərəkatı A.A.Bakıxanov və Mirzə Kazım bəylə başlamış [14, s.57, 71], M.F.Axundzadə və H.B.Zərdabinin timsalında yüksələn xətlə davam etmişdir. Çünki ilk dəfə A.A.Bakıxanov və Mirzə Kazım bəy müsəlman xalqlarının tənəzzül etməsini daha aydın şəkildə görmüş [14, s.75], hər ikisi tarixi əsərlər yazmışlar. Baykaraya görə, Mirzə Kazım bəy ilk olaraq "Dərbəndnamə", Bakıxanov daha sonra "Gülüstani-İrəm" tarixi əsəri ilə Azərbaycan və Qafqazda milli vətənpərvərliyi yenidən gündəmə gətirmişlər [4, s.57]. Burada Baykaranın Mirzə Kazım bəyi, onun türk-tatar qrammatikasını yazmasını yüksək qiymətləndirərək ilk Azərbaycan Türk vətənsevəri kimi qiymətləndirməsi də diqqəti çəkir: "Mirzə Kazım bəyin bu incələmələri, türk-tatar qrammatikasını yazması və o dövrdə rus çar hökumətinə verdiyi raportda rus idarəsi altında olan bütün türklərin başa düşə biləcəkləri türk dili yaradılması fikrini təklif etməsi ilə onu ilk Azərbaycan Türk vətənsevəri saysaq, elə bilirəm ki, yanılmarıq" [4, 57]. Bizcə, Mirzə Kazım bəyin məqsədi "rus idarəsi altında olan bütün türklərin başa düşə biləcəkləri Türk dili yaradılması" deyildi. Mirzə Kazım bəy yalnız Qafqazdakı, özəlliklə Azərbaycan türklərinin dilini formalaşdırmağa çalışmış, "Azərbaycan ləhcəsi"ndən bəhs etmişdir. Bu işə isə Mirzə Kazım bəyi çar Rusiyasının ideoloqları cəlb etmişdilər [6, s.84].

Ancaq H.Baykaranın o fikriylə razılaşırıq ki, çar Rusiyasının Bakıxanovun "Gülüstani-irəm" adlı tarixi əsərini çap etməməsi məhz onun milli ruhu ilə bağlı olmuşdur. Çünki çar Rusiyası onun əsərin nəşr olunmasına razılıq verməməklə Qafqaz xalqlarının şanlı keçmişlərini öyrənmələrini istəməmişdir [6, s.58]. Baykara yazırdı: "İlk dəfə Şirvan və Dağıstanın ümumi tarixini yazan A.Ağanın yaşadığı çağ və mövzunun zorluğu düşünülürsə, ona XIX yüzyılın ən önəmli Türk tarixçisi yerini vermək lazımdır" [14, s.73].

H.Baykaranın fikrincə, M.F.Axundzadə və H.Zərdabi isə müasirləri arasında Avropa mədəniyyətini daha dərindən başa düşmüş və onun dönməz təbliğatçısı olmuşlar. Baykara yazırdı: «Mirzə Fətəli və H.Zərdabinin o dövrdəki yazılarında, mübarizələrində Azərbaycan üçün istədikləri bunlardır: azad siyasi bir həyat, xalq demokratiyası, məhsul vasitələrinin inkişaf etdirilməsi, təbii

sərvətlərdən xalqın rifahı üçün geniş surətdə fayda təmin edilməsi… Bütün bu nemətlərin xalq üçün əldə edilməsi tezisinin başında, onların ən öndə gələn ideoloji arzuları «feodal monarxiya» rejimini zorla devirmək istəyi vardır. Bu iş yerinə yetirilmədən o biri işlərin həyata keçməycəyini daha çox Mirzə Fətəli başa düşmüş və anlamışdır» [4, s.62-63]. Ancaq mühacir aydınımızın fikrincə, siyasi anlamda "millət" sözünü ilk dəfə M.F.Axundzadə işlətsə də, H.Zərdabi "Əkinçi" qəzetində "millət" anlayışını daha da inkişaf etdirmşdir. Ancaq Azərbaycanda millətçilik ruhunun daha qabarıq şəkildə ortaya çıxması Ünsüzadə qardaşlarının nəşr etdirdiyi "Kəşkül" və "Ziya" qəzetləri ilə bağlı olmuşdur. Belə ki, həmin qəzetlərdə 1880-ci illərdə nəşr olunan məqalələrdə "türk milləti", "Azərbaycan türkləri" sözlərindən istifadə olunmuşdur. Eyni zamanda həmin qəzetlərdə «millət», «istibdad», «haqq» sözlərinə də müraciət olunmuşdur [4, s.81].

**H.Baykara Azərbaycan milli mədəniyyəti və fəlsəfəsinin inkişafında milli aydınların rolu haqqında**

H.Baykara Azərbaycan milli mədəniyyəti və fəlsəfəsinin inkişafında milli aydınlarımızın rolunu göstərmək üçün, onların ana dillərində əsərlərinin sayının çoxalmasını göstərirdi. O yazırdı ki, XIX əsrədək nisbətən fars və ərəb dillərində yazmağa üstünlük verən Azərbaycan türk mütəfəkkirləri, bu dövrdən etibarən əsasən türk dilində əsərlər yazırdılar. Özəlliklə, Avropada baş qaldıran milliyyətçilik hissləri Azərbaycan ziyalıları arasında da baş qaldırmışdı. Şübhəsiz, Azərbaycan türkləri arasında avropasayağı milliyyətçilik hisslərinin yaranmasında polyaklar, gürcülər, ruslar, ermənilər və başqa əcnəbi millətlərin mühüm təsiri olmuşdu. Bu anlamda Azəbaycan türklərinin ziyalı təbəqəsi arasında yaranan milliiyyətçilik hissləri düzgün dəyərləndirlməlidir. Hər halda, bütövlükdə dünyada, o cümlədən Avropada baş verən ideoloji-siyasi, elmi-fəlsəfi yeniliklər Azərbaycan mədəniyyətinə və fəlsəfəsinə də öz təsirini göstəriridi.

Bütün bunları Azərbaycan türklərinin yenidən milli oyanışı baxımından mühüm amillər hesab edən Baykaraya görə, 19-cu əsrin sonu – 20-ci əsrin əvvəllərində yaşamış H.Zərdabi, M.Ə.Sabir, N.Nərimanov, C.Məmmədquluzadə, H.Mahmudbəyli, S.M.Qənizadənin və başqalarının yorulmadan çalışmaları sayəsində Azərbaycanda 1880-ci ildən sonra «rus-tatar məktəbi» adlanan bir çox məktəblərin açılması yeni bir mərhələni təşkil etmişdir. Onun fikrincə, bu məktəblərin Azərbaycanın elmi həyatında oynadığı rolu inkar etmək olmaz: "XIX əsrin axırlarında türk pedaqoqları xalqın və varlıların yardımı sayəsində öz milli məktəblərini açmağa başladılar. Həmin məktəblərdə ruslaşdırma yox idi… 1890-cı ildə Azərbaycanda on iki gimnaziya və realnı məktəb vardı. Bu məktəblərdə oxuyan 5700 tələbədən 91 nəfəri türk idi» [4, s.53].

Ümumilikdə, XIX əsrdə, xüsusilə həmin əsrin ortalarından etibarən milli ictimai-fəlsəfi fikir, əsasən, milli-dini (milli özünüdərk-millətləşmə və əsl islamı təbliğ etmək) və müasirləşmək (Qərb mədəniyyətini mənimsəmək) ideyaları ilə bağlı olmuşdur. Xüsusilə, 1830-1900-cu illərdə təməli qoyulan milli ideologiyanın, yəni milli-dini və yeniləşmək ideyalarının ilhamvericiləri isə məzhəbpərəstlər, ruhanilər, saray şairləri deyil, mədəni millətçilər, mədəni inqilabçılar – A.A.Bakıxanov, M.Kazım bəy, M.F.Axundzadə, C.Əfqani, H.B.Zərdabi, «Əkinçi»nin müəllifləri və b. olmuşlar. Məhz ilk dəfə onlar millətin oyanması, birləşməsi və azadlığı üçün savaşa başlamış, milliyyətdən millətə keçməsi prosesində mühüm rol oynamışlar.

Eyni zamanda bu ziyalılar, «müsəlman» dini mənsubiyyəti içində itib-batan Azərbaycan türklərinin milli varlığını qoruması üçün yeni həyat və yeni ictimai münasibətlər tərzini yaratmağa çalışmışlar. İlk növbədə, köhnə ictimai münasibətləri, sxolastik dünyagörüşü yıxmaq üçün savaşa atılan mədəni inqilabçılar xalqına müasirləşmiş bir ədəbiyyat, mətbuat, sənət, teatr, dünyəvi məktəb və maarif verməyə başlamışlar. H.Baykara yazır: «Belə bir ağır zamanda, azəri türk cəmiyyəti bir millət olaraq meydana çıxma şüuruna çatmışdır. Çünki miladdan öncə min illərə varan dövrdən bəri ata və babalarının yaşadıqları bir torpaq parçası – «Vətən» vardı, bu torpaqda yaşayan və zamanın axarı ilə inkişaf edən bir Azəri türk cəmiyyəti vardı. Üçüncü ünsür bu cəmiyyətin haqqını, iradəsini, varlığını, malını, canını qoruyan, kültür və mədəniyyətini yaradan ziyalı liderləri idi. Onların rəhbərliyi altında tarixin səhnəsinə çıxmaq və üzərlərinə düşən «millət» rolunu oynamaq lazım gələcəkdi. Beləliklə, sözdə deyil, işdə azadlıq uğrunda mübarizə aparmaq lazım idi. Etnik birliyə

malik Azərbaycan xalqı vardı, neçə əsrlərdən bəri coğrafi sərhədlərə malik Azərbaycan ölkəsi vardı, yalnız siyasi hakimiyyət, azadlıq yoxdu. Lakin nəyin bahasına olursa-olsun, bütün bunları əldə etmək lazımdı...» [4, s. 82].

Deməli, M.F.Axundzadə, H.Zərdabi, C.Əfqani və başqaları XIX əsrin ikinci yarısında mədəni inqilabın (yeniləşmənin), mədəni türkçülüyün və islamçılığın əsasını qoymuşlar ki, onların davamçıları da XX əsrin əvvəllərində, həmin ideyalara əsaslanaraq azadlıq və milli istiqlal uğrunda mübarizə aparmalı idilər. Çünki artıq müstəqillik üçün gərəkən bütün şərtlər Azərbaycan xalqında vardı. Baykara yazırdı: "Millətin etnik birliyə və kökə əsaslanması lazımdır. Bu sürətlə millət fərdləri arasında tarix birliyi, dil birliyi, ideya birliyi, mədəni və mənfəət birliyi kimi ünsürlər mövcud olmalıdır. Beləliklə, milləti təşkil edən xalqın vətəndaşları arasında bir - birlərinə bağlılıq və keçmiş, yüz illərdən əvvəl yaşamış ulularından və atalarından onlara qalan iftixaredici və kədərləndirici xatirələr ümumi anlayış yaratmaqdır" [4, s. 79].

Beləliklə, XIX əsrdə yaranan mədəni islamçılıq, mədəni türkçülük və mədəni inqilabçılığı, XX əsrin əvvəllərində Azərbaycan türk ziyalıları Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə, N.Yusifbəyli və b. ideoloji şəklə salmağa çalışaraq, əvvəlcə onu islamçılıq və türkçülük, daha sonra isə Azərbaycan türk milliyyətçiliyi və azərbaycançılıq («Azərbaycan» ideyası) kimi formulə etməyə cəhd göstərmişlər. Bununla da sələflərinin yolunu uğurla davam etdirən xələflər, milli ideologiyanın inkişafında əsas və həlledici mərhələyə daxil olmuşlar.

**H.Baykarının yaradıcılığında Milli İstiqlal mübarizəsinin ümumi təhlili**

H.Baykaraya görə, XX əsrin əvvəllərində Azərbaycan türkləri yeni bır mərhələnin başlanğıcında olduğunu anlayırdılar. Çünki artıq Azərbaycan xalqı yenidən toparlanmaq gücünə çatmışdı. Bunun bariz örnəklərindən biri Azərbaycanda milli oyanışın açıq müstəviyə keçməsi idi. Onun fikrincə, milli oyanışın əsas dayağı milli ziyalılar və onların ərsəyə gətirdikləri əsərləri idi. Milli aydınlar bir tarafdan xalqı maarifləndirir, digər tərəfdən milli-demokratik dövlət qurmaq üçün ideyalar irəli sürürdülər. Özəlliklə, Azərbaycan milli aydınlarından Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Əlimərdan bəy Topçubaşov və başqaları mətbuatda dərc olunan yazılarında xalqı oyanışa, birləşməyə, 1905-ci il inqilabının verdiyi haqq və azadlıqlardan maksimum istifadə etməyə çağırmışdı. Baykara yazırdı: «Dünənə kimi uşaqları üçün ana dilində məktəb açmaq imkanı olmayan, qəzet nəşr etdirə bilməyən, seçki hüququ məhdudlaşdırılan və daha bir sıra haqları əlindən alınan bir xalqın birdən-birə nailiyyətlər əldə etməsi çar hökuməti üçün gözlənilməz bir sürpriz oldu» [4, s.111]. Doğrudan da, itirilmiş müstəqilliyin yenidən qazanılması yolunda xeyli işlər görülmüşdü. Bu milli işdə Azərbaycan aydınlarının əvəzsiz rol oynadığını dəfələrlə vurğulayan Baykara hesab edirdi ki, XX əsrin əvvəllərində əsas mübarizə ilk növbədə ruslaşdırma siyasətinə qarşı aparılmışdır. Burada söhbət türk torpaqlarına rus kəndlilərin göçürülməsinə qarşı mübarizədən, türk dilinin məktəblərdə keçirilməsinə nail olmaqdan, milli mətbuatın, milli kitabxanaların yaranmasından gedirdi. H.Baykara yazırdı: «Bu zaman ideologiya baxımından «avropalaşmaq, islamlaşmaq və türkləşmək» fikirləri ətrafında mübahisələr gedirdi. Bütün bu mübahisələrin ətrafında azəri xalqının milli - azadlıq hərəkatı dururdu. Azərbaycan azadlıq hərəkatını azəri xalqının tərəqqipərvər və vətənsevər ruhundan gələn demokratik adət-ənənələrə bağlamaq istəyən ziyalılar çoxluq təşkil edirdilər» [4, 119].

Qeyd edək ki, 20-ci əsrin əvvəllərində Azərbaycan milli aydınları, əsasən, üç cəbhədə fəaliyyət göstəriblər: 1) İslamçılıq və türkçülük; 2) Liberal-demokratik; 3) Sosial-demokratik. Baykaranın fikrincə, ilk iki cərəyan milli müxalifətə aid olduğu halda, sonuncular beynəlmiləlçi olmuşlar. Ancaq sonralar, 1910-cu illərdən etibarən yerli sosial-demokratlardan bir çoxu, o cümlədən M.Ə.Rəsulzadə də milli-demokratik cəbhəyə keçmişdir. Onun fikrincə, bu üç siyasi-ideoloji cəbhə ilə yanaşı, Türk Azərbaycanının istiqlalı uğrunda mübarizədə maarifçi-demokratik (realist və romantizm) ədəbi cərəyanları da mühüm rol oynamışdır [4, s.163-164].

Məlum olduğu kimi, həmin dövrdə Azərbaycanda milli-demokratik ideyalar bir yönlü olmamışdır. Bu dövrdə Əhməd bəy Ağaoğlu geniş və dərin, teoretik şəkildə "islam millətçiliyi"ni, Əli bəy Hüseynzadə "osmanlı türkçülüyü"nü təbliğ etdiyi bir zamanda, Əlimərdan bəy Topçubaşov «Rusiya müsəlmanlarının birliyi» devizi altında daha çox Azərbaycan türk xalqının milli-mədəni

muxtariyyəti üçün çalışmışdır. H.Baykara belə bir doğru qənaətə gəlir ki, bütövlükdə həmin dövrdə milli ideologiya baxımından mübahisələr «avropalaşmaq, türkləşmək və islamlaşmaq» ətrafında getmiş və bu mübahisələrin ətrafında Azərbaycan türklərinin milli azadlıq hərəkatı dayanmışdır [4, s.119]. Bu xəttin aparıcı daşıyıcıları Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu və Əlimərdan bəy Topçubaşov bir tərəfdən dini-əxlaqi keyfiyyətləri, milli mənsubiyyəti sinfi mübarizə adı altında inkar edən marksist-leninçi və qərbpərəst ifrat tərəqqiçilərə, digər tərəfdən isə hər cürə yeniləşmənin əleyhinə olan mühafizəkarlara qarşı idilər. Milli ideoloqlar cəmiyyətin həyatında milli, dini-əxlaqi keyfiyyətlərin qorunub saxlanılması ilə yanaşı, müsəlman-türk cəmiyyətinin yeniləşməsinin zəruriliyindən də bəhs edirdilər.

H.Baykaranın mülahizələrinə görə, Azərbaycan türkləri arasında ilk dəfə Ə.Ağaoğlu islamçılığa daha çox üstünlük vermiş, geniş və dərin, nəzəri şəkildə «islam millətçiliyi»ni təbliğ etmişdir. Onun fikrincə, 1900-1910-cu illərdə Ağaoğlu bir müsəlman ziyalısı kimi, əsasən, İslamda islahatlar aparmaqla müsəlman millətlərin tənəzzüldən qurtarıb tərəqqisinə və yüksəlişinə çalışmışdır [4, s.112]. Bununla da «panislamizm»in siyasiləşməsi, yəni «islam millətçiliyi» nəzəriyyəsinin yaranması milli məsələnin gündəmə gəlməsi üçün təkanverici rol oynamış, həmin ideyanın əsasında siyasi türkçülük (türk birliyi) və daha sonra etnik-milli türkçülük (Azərbaycan türkçülüyü) təşəkkül tapmışdır. Şübhəsiz, islamçılıqdan türkçülüyə, türkçülükdən Azərbaycan türkçülüyünə-azərbaycançılığa gedən yol təkamül nəticəsində baş vermişdir. Bu baxımdan, Ağaoğlu həmin dövrdə «islam millətçiliyi» uğrunda mübarizə aparsa da, türkçülüyə də meyil etmiş və bununla da Azərbaycan milli ideyasının - azərbaycançılığın meydana gəlməsinə zəmin hazırlayanlardan biri olmuşdur. Ə.Ağaoğlunun elmi-rasional islamçılıqdan kənara çıxıb siyasi islamçılığa – «islam millətçiliyi»nə meyil etməsində ən başlıca amillər Qafqazda ruslaşdırma, farslaşdırma siyasəti, o cümlədən 1905-1906-cı illərdə çar Rusyasının təhriki ilə planlı şəkildə baş verən erməni-türk münaqişəsi olmuşdur [1, s.50].

**Hüseyn Baykaranın yaradıcılığında milli partiyaların siyasi-fəlsəfi təhlili**

Baykaraya görə, Milli İstiqlal mübarizəsində Azərbaycanın milli partiyaları da mühüm rol oynayıblar. Onun fikrincə, Azərbaycanın ilk milli partiyası "Hümmət" olmuşdur ki, onun da əsas qurucularından biri M.Ə.Rəsulzadə olmuşdur [4, s.190]. Doğrudan da, bir müddət Rəsulzadə marksistlərlə eyni cəbhədə olmuşdur. Onlarla bir cəbhədə olarkən Rəsulzadə sübut etməyə çalışmışdır ki, İslam dini nəinki sosial-demokratizmə ziddir, əksinə, bir çox müddəaları üst-üstə düşür. Bu mənada o, sosial-demokratizmlə yanaşı, islamiyyət üzrə birləşməyin də vacib olduğunu qeyd etmişdi. Çünki İslamda da, sosial-demokratizmdə də əsas məsələ insaniyyətdir. M.Ə.Rəsulzadə sonralar yazırdı: «Hümmət bayrağına o zaman, xəlifə Həzrət Əlinin bir kəlamını almışdı və içərisində üləmayı dinindən, burjuva və fabrikatördən başlamış orta əsnaf, orta münəvvər sinfinə və əmələsinə qədər hərkəs vardı» [16, s.193].

H.Baykara yazır ki, Azərbaycan tarixində ikinci siyasi partiya da 1905-ci ildə Qafqazda ermənilərin türk və müsəlman əhalisinə qarşı törətdikləri qırğın zamanı Əhməd bəy Ağaoğlu tərəfindən yaradılan «Difai» partiyasıdır. Bu partiya yarandığı gündən Azərbaycan xalqı üçün çox böyük işlər görmüşdür. Ağaoğlu 1908-ci ilin sonlarında Türkiyəyə mühacirət edib və «Difai» sonralar «Müsavat»a birləşib [4, s.120-121].

H.Baykaranın fikrincə, Azərbaycanın siyasi tarixində yer alan üçüncü partiya «Rusiya Müsəlmanları İttifaqı» partiyasıdır [4, s.71]. H.Baykaraya görə, həmin dövrdə «Rusiya Müsəlmanları İttifaqı» Partiyasının lideri olan Ə.Topçubaşov Ə.Ağaoğludan fərqli olaraq liberal baxışları ilə tanınmışdır. O, Ə.Ağaoğlunun teosentrik panislamizmindən daha çox, dövrün gerçəklərindən çıxış etməyə çalışmışdır: «Sanki o, belə bir ideyanın müvəffəqiyyətlə başa çatmayacağını qabaqcadan hiss etmiş və anlamışdı. Bu məqsədlə o, 1905-ci il inqilabının gətirdiyi azadlıq nemətlərindən Azərbaycan xalqı üçün əlindən gələn qədər daha çox pay qoparmaq istəyirdi» [4, s.112]. Onun fikrincə, bu anlamda Ə.Topçubaşov islamçılıq və türkçülük kimi «utopik axınların heç birində iştirak etməmişdir. Dərin bilikli hüquqşünas və siyasətçi olan Əlimərdan bəy həyatı boyu realist və uzaqgörən bir şəxs

kimi tanınmışdır. «Rusiya Müsəlmanları İttifaqı» türklərin tarixində ilk dəfə birlik fikrini irəli sürmüşdür» [4, s.160].

Bizcə, H.Baykaranın qeyd etməsi ki, Ə.Topçubaşov ümumiyyətlə, islamçılıq və türkçülük axınlarında iştirak etməmişdir, doğru deyildir. Sadəcə, Topçubaşov Ağaoğlu və Hüseynzadə ilə müqayisədə daha çox realist mövqedən çıxış edərək, milli ideyanı nə mücərrəd və ümumi mahiyyət daşıyan «islam birliyi», nə də «Osmanlı türkçülüyü» olaraq qəbul etməmiş, onu daha çox Rusiyanın əsarəti altında olan türk xalqlarının azadlıq hərəkatında və bu hərəkatın əldə edəcəyi milli-mədəni muxtariyyətlər çərçivəsində görmüşdür. Bu isə daha çox liberal-demokratizmə əsaslanan milli baxış idi [10, s.25]. Bizcə, Topçubaşov ümumi və utopik xarakter daşıyan türkçülüyü (türk birliyini) və islamçılığı (islam birliyini) ideallaşdırmaqdansa, ilk növbədə konkret olaraq Rusiya ərazisində məhkum həyat yaşayan müsəlman türklərinin milli birliyini vacib saymışdır. O, bu zaman reallıqlardan çıxış edərək Rusiya türklərinin müəyyən mədəni və məhəlli muxtariyyət və başqa azadlıqlara sahib olmasına çalışmışdır [4, s. 112].

H.Baykara hesab edir ki, Qafqaz müsəlmanlarını «ümmətçilik»dən «millətçiliy»ə yönəldən, onları türkçülük-millətçilik, Azərbaycan milli ideyası ətrafında birləşdirən və «Açıq söz» qəzetində bunu təbliğ edən isə «Müsavat»ın lideri Məhəmməd Əmin Rəsulzadə olmuşdur: “1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibətilə çar tərəfindən elan edilən amnistiya siyasi məhbuslara da aid edilirdi. Bundan istifadə edən M.Ə.Rəsulzadə Bakıya döndü və “Müsavat” partiyasına daxil olaraq liderliyi tezliklə ələ aldı. 1915-ci ildə “Açıq söz” adlı qəzət çıxarmağa başlayan M.Ə.Rəsulzadə bu qəzet vasitəsilə İstanbuldan gətirdiyi Ziya Gökalpın “türkçülük” fikirlərini yaymağa başladı” [4, s. 186].

Əslində, burada Baykaranın demək istədiyi odur ki, Rəsulzadə Gökalpdan bu ideyaları daha dərin şəkildə mənimsəmişdir. Çünki türkçülük ideyası Türkiyədən Azərbaycana ixrac olunmamışdır. Bu baxımdan əvvəllər də, hazırda da xalqa bəzən yanlış bir fikir təlqin edilir ki, Azərbaycana millətçilik, türkçülük və bu kimi milli ideyalar kənardan-xaricdən gətirilmişdir. Bu, qətiyyən doğru deyil. Milli ideyaların beşiyi məhz Azərbaycan xalqı özü, Azərbaycan türkləri olmuşlar. Yuxarıda apardığımız araşdırmalar da göstərir ki, milli ideologiyanın başlıca qaynağı Azərbaycan türklərinə məxsus milli mənəvi dəyərlər olmuşdur. Milli mənəvi dəyərlərin ideyalar şəklində formalaşması isə birdən-birə baş verməmişdir, o, təkamül nəticəsində, tarixi şəraitə uyğun olaraq ortaya çıxmış və formalaşmışdır. Bunu Baykara özü də görmüş və bunu düzgün qiymətləndirərək yazmışdır: «Azərbaycana milliyyətçilik fikrini Əhməd Ağaoğlunun Fransadan, Əli bəy Hüseynzadə, Məhəmməd Əmin Rəsulzadənin İstanbuldan gətirdiyi düşüncəsi yanlış və əsassızdır. Şəraitin yetişmədiyi bir zamanda kənardan heç kim, heç bir fikir gətirib toplum həyatına yerləşdirə bilməz» [4, s.76].

**Hüseyn Baykaranın dünyagörüşündə Azərbaycan Milli İdeyasının təhlili**

Türkçülük məfkurəsi bütün türk ölkələrində, o cümlədən Azərbaycan və Türkiyədə eyni zamanda yaranmış və inkişaf etmişdir. Yeni dövr tədqiqatçılarından Y.Qarayev, A.Balayev, R.Mirzə və başqaları qeyd edirlər ki, türkçülük şüuru öncə çar Rusiyasının türk xalqları arasında yaranmış, siyasi türkçülüyün əsaslarını isə «Həyat» və «Füyuzat»da Azərbaycan türklərindən Ə.Hüseynzadə işləyib hazırlamışdır. Y.Qarayev yazır: «Azərbaycanda milli bir ideologiya səviyyəsində türkçülüyün ilk dəfə hərəkətə gəldiyi qatarın sükanı arxasında hamıdan əvvəl Əli bəyi görürük» [7, s.276]. Türkiyə tədqiqatçılarından M.Ertuğrul Düzdağ da hesab edir ki, Osmanlı dönəmində türkçülük cərəyanının yaranmasında «çar Rusiyası idarəsindəki Türk diyarlarından gəlmiş fikir və hərəkat adamlarının təsiri olmuşdu» [15, s.18].

1910-cu illərdə Türkiyədə mövcud olan milli cərəyanların kökünün eyni zamanda çar Rusiyası, o cümlədən Azərbaycanla bağlı olmasını vaxtilə Z.Gökalp, Y.Akçuraoğlu, M.B.Məmmədzadə, Ə.Cəfəroğlu və başqaları da dəfələrlə qeyd etmişlər. Məsələn, Y.Akçuraoğluna görə, Ə.Hüseynzadə müsəlman türkləri arasında ilk turançı, ilk panturançı hesab olunurdu [2, s.174, 205]. M.B.Məmmədzadə də qeyd edir ki, Azərbaycan milli hərəkatının kamilləşməsində, Azərbaycan ictimaiyyətinin şüurlanmasında «Füyuzat» jurnalı və onun əsas yazarı Ə.Hüseynzadə müstəsna rol oynamışdı [8, s.47]. M.Ə.Rəsulzadə isə bu məsələni bir qədər də dəqiqləşdirərək yazırdı: ««Füyuzat»

jurnalı «Türk Yurdu»nda olduğu kimi aydın, ardıcıllıqla olmasa da, türkçülük konusunu daha öncə işə salmış, hətta mərhum Ziya bəyin son çağlarda «Türk millətindənəm, islam ümmətindənəm, Qərb mədəniyyətindənəm» çağırışı ilə göstərdiyi anlamı Əli bəy Hüseynzadə «Türk qanlı, islam imanlı və firəng geyimli olaq» formulu ilə açıqlamışdı. Azərbaycan mətbuatının, eləcə sonrakı ədəbiyyatının şüurlu metodik bir biçimdə milli türk ideologiyasını işə salmaq düşüncəsi isə I Dünya savaşı öncəsində, illərində daha çox gəlişmişdir» [12, s.48]. Onun fikrincə, beləliklə, Balkan və dünya müharibələri dövrü türk milli ideyasının inkişafında dönüş nöqtəsi olmuşdu [11, s. 49].

Baykaraya görə, ilk dövrlərdə sosial-demokratlarla eyni cəbhədə çalışmış M.Ə.Rəsulzadə 1911-1913-cü illərdə müsəlman mütəfəkkiri Cəmaləddin Əfqaninin yazılarının təsiri altında türkçülük hərəkatına qoşulmuş və Azərbaycanda bu ideyanın əsas ideoloqu olmuşdur: «M.Ə.Rəsulzadənin Azərbaycan istiqlalının elanında və Azərbaycan dövlətinin yaradılmasında xidmətləri əvəzsizdir» [4, s.192]. Hesab edirik ki, ümumilikdə XX əsrdə Azərbaycan ədəbiyyatına, tarixinə, mədəniyyətinə də M.Ə.Rəsulzadə qədər diqqət yetirən, bunları qələmə alan, qiymətləndirən ikinci bir azərbaycanlı mütəfəkkir yoxdur. Bu baxımdan Məhəmməd Əmin mədəniyyətimizin, adət-ənənələrimizin, milli dövlətçiliyimizin unudulmaması və yaşadılması üçün əlindən gələni etmiş, yeni nəslin yaddaşında əbədi bir iz buraxmışdır [5, s.260].

H.Baykara onu da əlavə edir ki, Rəsulzadənin lideri olduğu «Müsavat» və Bitərəf demokratik qrup öncə milli ərazi və milli muxtariyyət tərəfdarı olsalar da, 1-ci və 2-ci rus inqilablarının gedişi, Qafqaz hadisələri onları özlərinin öncədən «uzaq məqsəd» olaraq planlaşdırdıqları Azərbaycan istiqlalı yoluna sürükləmişdi: «Azərbaycan istiqlal mübarizəsi tarixində «Azərbaycan istiqlalına» nə rast gəlinmiş, nə də baş verən siyasi hadisə olmuşdur. Azərbaycan xalqının ruhundan doğan bu istiqlal hadisəsi tarixin axarı içində öz yerini tapmışdır» [4, s.133]. Fikrimizcə, Baykara yuxardakı sözləri ifadə edərkən əsas vurğunu «Azərbaycan» anlayışına salmış, bu mənada tarixən «Azərbaycan istiqlalına» rast gəlinmədyini iddia etmişdir. Məlum olduğu kimi, 1918-ci ilə qədər «Azərbaycan» anlayışı coğrafi ərazi mənasında işlədilmiş, bu ərazidə təşəkkül tapmış dövlətlər isə müxtəlif adlarla (Manna, İskit, Atropatena, Albaniya-Aran, Şirvanşahlar, İldənizlər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər və b.) tarixə düşmüşdür. Dünya tarixində «Azərbaycan» adlı ilk müstəqil dövlət isə 1918-ci ildə yaranmışdır. Baykara da məhz bu faktordan çıxış etmişdir.

Baykara Azərbaycan Milli İstiqlalının məğlubiyyətindən də geniş şəkildə bəhs etmişdir. Onun fikrincə, Azərbaycan Cümhuriyyətinin süqutunda əsas rolu xarici amillər oynamışdır. Bu baxımdan Baykara Sovet Rusiyasının Türkiyəyə hərbi yardım adı altında Azərbaycanı işğal etməsi məsələsini özəlliklə vurğulamışdır. O zaman Türkiyənin rəhbərləri, başda Mustafa Kamal olmaqla, hesab edirdilər ki, az qala bütün Qərb ölkələrinin Türkiyəyə müharibə açdıqları bir vaxtda türklərin bolşeviklərlə, yəni Sovet Rusiyası ilə əməkdaşlıq etməsi məcburidir [3, s.12-13]. Xüsusilə, Türkiyə və Azərbaycandakı bəzi kommunist düşüncəli qüvvələrin (Xəlil paşa, Kazım Qarabəkir paşa, N.Nərimanov, Ə.Qarayev və b.) Sovet Rusiyasına həddən artıq etimad göstərməsi, xüsusilə Azərbaycan Milli hökumətinin Sovet hökuməti ilə əvəz olunmasının zəruriliyi ilə bağlı mülahizələr Azərbaycanın faciəsi, yəni Milli hökumətin devrilməsi ilə nəticələnmişdir. Hər halda, bunu yalnız Azərbaycan tədqiqatçıları deyil, bir sıra Türkiyə alimləri – Tarık Zafer Tunaya, Doğan Avçıoğlu, Səlahəddin Tansel, Aclan Sayılqan və başqaları da etiraf ediblər [4, s.261].

Bu baxımdan Azərbaycan Cümhuriyyətinin süqutunda milli ideoloqların başarsızlığını önə çəkmək bir o qədər də inandırıcı deyildir. Bəzi tədqiqatçıların yazdığının əksinə olaraq Azərbaycan Cümhuriyyətinin dövlət başçısı M.Ə. Rəsulzadə həmin dövrdə Sovet Rusiyasının Türkiyəyə yardım bəhanəsindən istifadə edərək Azərbaycanı işğal edəcəyini anladığı üçün, parlamentin son toplantısında hakimiyyətin yerli kommunistlərə təslim edilməsinin əleyhinə çıxmışdır. O bəyan edirdi ki, Sovet-Rus ordusunun Türkiyəyə yardım etməsi naminə Azərbaycanın qapıları bolşeviklərin üzünə açıq olsa da, bu onun müstəqilliyi bahasına başa gəlməməlidir: «Rusiyadan gələn bu mötəcaviz ordu təmin edirlər ki, həyat və məmat mücadiləsində qalan Türkiyəni xilas üçün gedir. Əfəndilər, Türkiyə Azərbaycanın xilaskarıdır. Amali milliyyətimizin təbcil eylədiyi müqəddəs bir məmləkətdir. Onun xilasına gedən qüvvəti biz məmnuniyyətlə istiqbal və teşyi edərik. Fəqət bir şərtlə ki, bu qüvvət bizim

hürriyyətimizi, istiqlalımızı çeynəməsin. Halbuki, əfəndilər, bizə sormadan hüdudumuzu keçən hər hansı bir qüvvət dostumuz deyil, düşmənimizdir... Biz buraya millətin iradə və arzusuyla gəldik, bizi buradan yalnız qüvvət və süngü çıxarmalıdır» [13, s.146-147].

Baykaranın da Azərbaycanın süqutu ilə əlaqəli gəldiyi qənaət, məhz bunun daxil problemlərdən çox, xarici amillərdən qaynaqlanmasıyla bağlı olmuşdur. Özəlliklə, Azərbaycanla Türkiyə arasında nifaq yaradılaraq, Azərbaycanın meydanda tək buraxılması türk düşmənlərinin əsas vəzifəsi idi. Baykara yazırdı: "Bu uzun hərəkat və Azərbaycan hökumətinə qarşı yürüdülən xaincəsinə intriqanı açıqlamaq yönündən çox maraqlıdır. Burada deyilir ki. Azərbaycana axırıncı dəfə gedən türk zabitləri hökumətin yeni yaranmış ordusuna qəbul edilmir və vaqe olan müraciətlər bir-bir başdan edilirdi. Bu vəziyyətdə ingilislərin təsiri olduğu kimi, Aəzrbaycan hökuməti türk zabitlərinin ordunun nüfuzunu əllərinə almalarından qorxurdu" [4, s.273]. Bundan sui-istifadə edən türk düşmənləri, o cümlədən boşeviklər Azərbaycanı ələ keçirmək üçün bu oyundan məharətlə istifadə etdilər. Baykara yazırdı ki, Azərbaycan hökumətinə qarşı birləşmiş qüvvələrin oyunu nəticəsində Türkiyə rəhbərliyi Azərbaycana inanmamaq həddinə gəlmişdi: "Anadolu milli - azadlıq hərəkatına heç bir vaxt laqeyd qalmayan və etmək istədiyi yardım Moskva agentlərinin ustalığı sayəsində türk paşa və zabitlərinin əllərilə sabotaj edilən, önlənən məsum, günahsız Azərbaycan xalqı haqqında qardaş bir millət tərəfindən qəti qərar verilmişdir" [4, s.274].

Bu baxımdan etiraf etmək lazımdır ki, Rəsulzadə deyil, Türkiyənin və Azərbaycanın bəzi ideoloqları (Mustafa Kamal, Xəlil paşa, N.Nərimanov və b.) ilk dövrlərdə, doğrudan da, Sovet Rusiyasına etimad göstərmiş, onun sovetləşmə ideyasının Azərbaycanda reallaşmasında ya maraqlı olmuş, ya da bu prosesdə birbaşa şəkildə iştirak etmişlər. Ancaq sonralar onlar Sovet Rusiyasının «sovetləşmə» ideyası adı altında işğalçılıq siyasətini anlamışdılarsa da, artıq çox gec olmuşdur. Bunu Türkiyə Cümhuriyyətinin qurucusu Atatürk də, N.Nərimanov da etiraf etmişlər. Yəni onlar «sovetləşmə»dən Azərbaycanın, müəyyən mənada da Türkiyənin də qazanacağını ümid etdikləri halda, Sovet Rusiyasının ikizlü və riyakar siyasəti nəticəsində, N.Nərimanovun təbrincə desək, Azərbaycan yalnız müstəqilliyini deyil, həm də torpaqlarını itirmişdir [9, s.466].

H.Baykaranın fikrinə görə, türkçülyün milli ideoloqları ilə yanaşı, Azərbaycanın milli- azadlıq hərəkatında romantizim (H.Cavid, M.Hadi, A.Səhhət, A.Şaiq və b.) və realist (C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, M.Ə.Sabir, F.B.Köçərli və b.) ədəbi məktəbin nümayəndələri də mühüm rol oynamışlar: «Azərbaycan türklərinin milli azadlıq, mütərəqqi mədəniyyət mücadiləsində bu romantik ədib və şairlər xalqın arzularını, ideyalarını və bu ideyaları gerçəkləşdirmək, həyata keçirmək üçün səy edən, hətta həyatlarını qurban verən millət qəhrəmanlarını bədii əsərlərində dilə gətirib, xalqı ruhlandıraraq onlara milli azadlıq mübarizələrini həyata keçirmək üçün rəhbərlik etmişdilər. Azərbaycanda romantizm cərəyanı ilə yanaşı, çox qüvvəli, realist və Azərbaycan xalqının coğrafi çevrəsindən xarici aləmə köçmək həvəsi göstərmədən, öz kökü üzərində tarixi keçmişi və ənənələrilə qaynaşaraq öz milli - azadlıq və mütərəqqi mədəniyyət məsələlərini həll etməkdə böyük səy göstərən, düha dərəcəsində enerji və qabiliyyətə sahib ədib, şair və yazarların təmsil etdikləri realist ədəbi məktəbi vardı» [4, s.164].

H.Baykaranın fikrincə, milli romantizmin nümayəndələri Azərbaycan türklərinin təkcə elmə yiyələnməsi və onu mənimsəməsi ilə kifayətlənməmişlər: «Azərbaycan türklərinin hüquqlarına, hürriyyət və istiqlaliyyətlərinə qovuşması üçün mücadiləyə də səsləmişlər. Onların fikrincə, mütərəqqi cəmiyyət elmsiz, irfansız olmaz. Elmi-irfanı olan toplum isə irəliləyər, ucalar və başqa toplumlar arasında özünəlayiq yeri əldə etmək üçün öncə haqqını, hüriyyətini, istiqlalını almağa çalışır, ölür, öldürür, ən nəhayət də qurtuluşa çatır» [4, s.166]. Başqa sözlə, onlar Azərbaycan türklərinin milli - azadlıq, mütərəqqi mədəniyyət mücadiləsində xalqın arzularını, ideyalarını və bu ideyaları gerçəkləşdirməyə çalışan millət qəhrəmanlarını tərənnüm etmişlər [4, s.164].

Azərbaycan realistlərinə gəlincə, Baykara onların Milli İstiqlal mübarizəsindəki yerlərini və rollarını da şərh etmişdir. Onun fikrincə, Azərbaycan xalqının maariflənməsində böyük xidmətləri olan realist ədəbi məktəbinin səyləri Azərbaycan sərhədlərini aşaraq Orta Asiya ölkələrinə qədər yayılmışdır. Baykara yazırdı: "Mən bu məktəbin Azərbaycan mədəniyyətində oynadığı rolu,

ensiklopedistlərin Fransada inqilabdan əvvəl oynadıqları rola bənzətmək istəyirəm. Həqiqətən, Azərbaycan realist məktəbinə mənsub olanlar ensiklopedistlərdən Didro və Dalamberin (1751-1752-ci illərdə) çap etdirdikləri kimi bir ensiklopediya nəşr etdirmişlər. Təkcə "Molla Nəsrəddin"in ətrafında toplaşan Azərbaycan yazarları xalq üçün ondan daha çox işlər görmüşdülər" [4, s.172].

## Nəticə / *Conclusion*

Hüseyn Baykaranın mədəni-fəlsəfi irsinin əsas cəhətlərini ümumiləşdirərək, belə qənaətə gəlmək olar ki, onun yaradıcılığında Azərbaycan Milli İdeyasının yaşadılması kontekstində, Azərbaycan mədəniyyətinin, fəlsəfəsinin tədqiqi və təbliği dayanmışdır. Başqa sözlə, onun Azərbaycan mədəniyyəti və fəlsəfi fikri ilə bağlı araşdırmaları Azərbaycan Milli İdeyası ilə sıx bağlı olmuşdur. Baykara hər bir əsərində mədəniyyət və fəlsəfənin problemlərini araşdırmaqla yanaşı, dövrün onun qarşısında qoyduğu çətinlikləri də ifadə etməyə çalışmışdır. Bu mənada, SSRİ rejiminin Azərbaycan mədəniyyəti və fəlsəfəsinə qarşı yürütdyü «sovet beynəlmiləlçiliyi» ideyasını Baykara həmişə tənqid atəşinə tutmuşdur.

Eyni zamanda o, bacardığı qədər bir tərəfdən «sovet beynəlmiləlçiliyi»nin iç üzünü açıb göstərməyə çalışmış, digər tərəfdən isə Azərbaycan mədəniyyətini və fəlsəfəsini obyektiv şəkildə dünya ictimaiyyətinin nəzərinə çatdırmağa çalışmışdır. Bu baxımdan onun A.A.Bakıxanov, M.F.Axundzadə, H.Zərdabi və başqa klassiklərimizə həsr etdikləri saysız-hesabsız məqalələri onların dünyagörüşlərinin doğru şəkildə cəmiyyətə çatdırılmasında da mühüm rol oynamışdır.

Gördüyümüz kimi, Baykara Azərbaycan mədəniyyətinə və fəlsəfəsinə əvəzsiz töhfələr vermiş, öz dünyagörüşündə Azərbaycan Milli İdeyasını sonsuza qədər yaşatmaq prinsipindən bir an olsun belə geri çəkilməmişdir. Əksinə, onun üçün Azərbaycan mədəniyyəti və fəlsəfəsini öyrənmək və tədqiq etmək, rus kommunizminin saxta mahiyyətini açıb göstərmək Azərbaycan Milli İdeyasını yaşatmaq və Milli İstiqlala nail olmaq üçün ən ümdə vasitələr olmuşdur.

## İstifadə olunmuş ədəbiyyat / *References*


1. Ağaoğlu Ə. İslama görə və islamda qadın. «Mədəniyyət dünyası» - elmi - nəzəri məcmuə. 12 buraxılış. Bakı, 2006.
2. Akçura Y. Türkçülüyün tarixi. Bakı: Qanun, 2010, 272 səh.
3. Atatürkün Azərbaycan siyasəti (öz dili ilə). Bakı: Çaşıoğlu, 2008,84 s.
4. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: Azərnəşr, 1992, 276 s.
5. Ələkbərov F. Məhəmməd Əmin Rəsulzadənin dünyagörüşü. Bakı: Elm, 2007, 270 s.
6. Ələkbərov F. Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış (II hissə). Bakı: Elm və Təhsil, 2014, 500 s.
7. Qarayev Y. Tarix: yaxından və uzaqdan. Bakı: Sabah, 1996, 712 s.
8. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı: Nicat, 1992, 246 s.
9. Nərimanov N. Seçilmiş əsərləri. Bakı: Lider nəşriyyatı, 2004, 496 s.
10. Rəsulzadə M. Ə. Azərbaycanda Milli Hərəkat. Bakı: Elm, 2009, 128 s.
11. Rəsulzadə M. Ə. Panturanizm. Qafqaz sorunu. Bakı: Təknur, 2012, 68 s.
12. Rəsulzadə M.Ə. Qafqaz türkləri. Bakı: Təknur, 2012, 112 s.
13. Yaqublu N. Məmməd Əmin Rəsulzadə. Bakı: Gənclik, 1991, 308 s.
14. Baykara H. Azerbaycanda yenileşmə hareketleri. XIX yüzil. Ankara: Türk Kültürünü Araştırma Enstitüsü, 1966, 200 s.
15. Düzdağ E. Türkiyede islam ve irkçılık meselesi. İstanbul: Cihad, 1976, 350 s.
16. Resulzade M.E.Hatıralar ve Kafkasya. İstanbul, 2011, 208 s.

# Азербайджанская национальная идея в творчестве Гусейна Байкара

**Фаик Алекперли**
Доктор философии по философии, доцент, Института философии и социологии НАНА, ведущий научный сотрудник. Азербайджан.

**Резюме.** В статье отмечается, что в творчестве Гусейна Байкара особое место занимают такие социально-идеологические и философские вопросы, как вступление азербайджанского народа в XIX в. На новый этап своего развития и завоевание свободы, утраченной когда-то в результате захватнической политики царской России. Здесь нашли отражение также политико-идеологические и философские вопросы. Кроме того, в контексте сохранения национальной независимости, которая составляет основы его мировоззрения, освещены вопросы азербайджанской культуры, а также исследование и пропаганда азербайджанской философии. Далее отмечается, что изыскания Гусейна Байкара в области азербайджанской культуры и философской мысли тесно связаны с вопросами национальной независимости, в том числе с азербайджанством. В каждом своем произведении исследкя проблемы культуры к философии он стремился показать трудности, которые поставила перед ним эпоха.В этом смысле он подвергал критике идею «советского интернационализма», выдвинутую советским режимом против азербайджанской культуры и философии. По мнению Байкара в азербайджанском национально-освободительном движении наряду с азебайджанско-тюркскими национальными идеологами важную роль играли предсавители романтической – реалистической школы.

**Цель:** показать сущност философско-исторической и политико-идеологической азербайджанской национальной идей на основе творчества Гусейна Байкара.

**Методология:** сравнительный анализ, преемственность.

**Научная новизна:** для согласования основных принципов азербайджанской национальной идей, или азербайджанства с требованиями современности, необходимо разработать более прагматичные принципы.

**Ключевые слова:** азербайджанская национальная идея, тюркизм, азербайджанский тюркизм о современить, азербайджанская культура, азербайджанская философия, большевизм, советский интернационализм.